BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Humanitar elmlər seriyası 2018

UOT 82(100) (091); 821(100) (091)

# NAMİQ KAMALIN "CƏLALƏDDİN XARƏZMŞAH" PYESİNDƏ TARİXİ ŞƏXSİYYƏT VƏ İSLAM BİRLİYİ İDEYASI

**K.N.NƏCƏFOVA**
***Bakı Dövlət Universiteti***
***necefova1974@ mail.ru***

*Dünyanın elə mötəbər yaradıcı şəxsiyyətləri vardır ki, onların əsərlərinin öyrənilməsi bütün dövrlər üçün vacib və gərəklidir. Çünki biz həmin sənət adamlarının irsindən yalnız keçmişi deyil, həmçinin gələcəyi də öyrənirik. Namiq Kamal da belə şəxsiyyətlərdən biridir. Onun əsərlərində təbliğ etdiyi hürriyyət, azadlıq duyğuları, dönə-dönə irəli sürdüyü islam birliyi ideyası bu gün daha çox müasir günümüzün aktuallığıdır. N.Kamal Türkiyə tarixinin böhranlı çağlarında yaradıcılığa başlamış, milli mücadilə illərinin canlı şahidi kimi zəngin yaradıcılıq yolu keçmişdir. O, yaşadığı dövrdə duyğu və düşüncələrini əsərlərində qabarıq şəkildə ifadə edən usta şair, nasir, dramaturq və publisistdir. N.Kamalın pyesləri türk dramaturgiyasında bir mərhələ təşkil edir. Əsas ideyasını vətənə dərin məhəbbət təşkil edən "Cəlaləddin Xarəzmşah" pyesinin N.Kamalın əsərləri arasında xüsusi bir yeri vardır. N.Kamalın islam tarixi ilə bağlı düşüncələrini və islam birliyinə olan ümidlərini bu əsərində görmək mümkündür. Məqalədə Namiq Kamalın "Cəlaləddin Xarəzmşah" pyesinin ideya-məzmun xüsusiyyətləri araşdırılır.*

**Açar sözlər*:*** Cəlaləddin, pyes, tarixi şəxsiyyət,islam,hürriyyət, Namiq Kamal

Çoxəsrli və zəngin bir tarixi olan türk ədəbiyyatı bəşər bədii təfəkkürünün təkamülü tarixində böyük rol oynayan ədəbi simalar yetişdirmişdir. Bunların sırasında Namiq Kamal (1840-1888) da vardır. N.Kamal XIX əsr türk ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Bədii fikir tarixində istedadlı şair, nasir, dramaturq və tənqidçi kimi məşhurlaşan ədib yeni tipli Tənzimat dövrü ədəbiyyatının banisidir.

N.Kamal yaradıcılığının bir hissəsini onun dramaturgiyası təşkil edir. Bu dramaturgiya istər dil, üslub, istər forma-məzmun, ideya-mövzu, istərsə də zaman-məkan anlayışları baxımından çoxcəhətli və çoxproblemlidir. Türk ədəbiyyatında istər forma, istərsə də məzmun baxımından bir ədəbi növ kimi dram Namiq Kamalın pyeslərilə əsl inkişaf yoluna, mükəmməllik mərhələsinə daxil olmuşdur. Namiq Kamalın yaradıcılığında tarixi keçmiş, tarixi şəxsiyyətlər mühüm mövzular olmuşdur. Şerif Aktaş, Namiq Kamalın tarixi vəzifə daşıyıcısı, tarixi missiya sahibi olan qəhrəmanların həyatını yazıya almasını belə dəyərləndirir: "Türk-islam tarixindən seçdiyi qəhrəmanların missiya sahibi oluşları, Namiq Kamalın bu əsərləri qələmə alma səbəbini açıq şəkildə ortaya qoyur...

"Cəlaləddin Xarəzmşah" və "Cəzmi"də bizi biz edən dəyərləri daşıyaraq gələcəyi hazırlamaq fikri ətrafındakı düşüncələrini ortaya qoyur" (1,9).

Dramaturqun mövzusunu türk-islam tarixindən alan "Cəlaləddin Xarəzmşah" pyesi oynanılmaq üçün deyil, oxunmaq üçün yazılmışdır. Oxunmaq üçün yazılmasının səbəbi on altı pərdəlik uzun bir pyes olmasıdır. Bu əsərdə Orta Asiyada müsəlman türk dünyası ilə müsəlman olmayan türk dünyası arasındakı şiddətli çarpışma, bu çarpışmanın səbəb olduğu faciə dramatik bir şəkildə işlənir. Tarixdən məlumdur ki, Cəlaləddin Xarəzmşahlar dövlətinin son hökmdarı olmuşdur. Əsl adı Mənquberdi olub, ləqəbi Cəlaləddindir. Cəlaləddin Xarəzmşah böyük bir xaqan, hərb sahəsində bir düha idi. Lakin əsgəri qabiliyyət və bacarıqlarını siyasətlə uzlaşdırmaması, diplomatiya ilə hərəkət etməməsi onun məğlubiyyətinə səbəb olmuşdur. Buna baxmayaraq, moğolların işğalçı yürüşlərinə qarşı tək vuruşmuş, digər türk-islam dövlətlərinin öz qınına çəkilməsi Cəlaləddin Xarəzmşah istər xalq arasında, istər bütün Şərq ədəbiyyatında böyük şöhrət qazandırmış, həyatı, qəhrəmanlıqları əfsanələrə çevrilmişdir.

Əsərdə Xarəzmşahlar dövlətinin son hökmdarı Cəlaləddin Xarəzmşahın həyatı, qəhrəmanlığı və moğollara qarşı türk-islam dünyasını qorumaq üçün girişdiyi mücadilə təsvir olunur. Xarəzm hökmdarı Cəlaləddin Xarəzmşah ölkəsini işğal edən moğollara qarşı döyüşdə məğlub olur. Hindistana qaçarkən onları izləyən moğol əsgərlərinin əllərinə keçməsinlər deyə, arvadıyla oğlunu çaya atır. Təbriz qalasının hakimi Mehricahan xatunla evlənir. Moğolların mühasirəsində xəyanət nəticəsində öldürülür. Mehricahan da öz ürəyinə sapladığı xəncərlə ölümünə qərar verir, yaşamağına son qoyur.

Cəlaləddin səltənət uğrunda, padşahlıq, hakimiyyət uğrunda savaşmır. İstəsə, özünün dediyi kimi, Cəlaləddin əlində qılınc, əynində zireh dünyanın hansı tərəfinə getsə, orada dövlət qurar. O, xanədanı, namusu, yəni vətən torpaqları uğrunda mübarizə aparır. Döyüşməsə, düşmənin tapdağı altında əzilər. O, arvadı Neyyirəyə: "torpağı dinləsən, yetim iniltisi eşidilir. Suya baxsan, şəhid qanı görünür"- deyir. Cəlaləddin hesab edir ki, "Allahdan nail olduğu inayətin, xalqdan gördüyü itaətin əvəzi olaraq belə günlərdə Haqq üçün, xalq üçün canı fəda etmək gərəkdir".

Cəlalın atası Məhəmməd Xarəzmşah yüz min nəfərlik ordusu olan Çingiz xana qarşı döyüşməkdən ehtiyat edir, çəkinir. Məlum olur ki, onun əmirlərinin yarısı ordunu tərk edib düşmənə sığınıblar. Məhəmməd Xarəzmşah isə bir adaya çəkilir. Cəlal atası ilə razılaşa bilmir.

Döyüşlərdən xəbər gətirən Özbək, Məhəmməd Xarəzmşahın oğlu Rüknəddinin hünərindən, son nəfəsinə qədər vuruşmağından, düşmənə baş əyməməsindən, ona təslim olmamasından və şərəflə ölməyindən danışır, arvadının isə düşmən əlinə keçdiyini xəbər verir. Bu xəbərdən Məhəmməd Xarəzmşah sarsılır və ölür. Cəlaləddin atasının ölümündən sonra hamını döyüşə, vətəni qorumaq uğrunda mübarizəyə çağırır. Xarəzmşah hökmdarının Çingiz xana məğlubiyyətindən çox üzülən Cəlaləddin Xarəzmşah atasının cəsədi önündə islamiyyəti müdafiə üçün hər cür fədakarlığa and içərək Çingiz ilə təkrar

savaşa girib yenilir. Sarayın əyanları, sərkərdələri Cəlaləddinə xəyanət edirlər, Çingiz xanın tərəfinə keçmək niyyətində olurlar. Onların fikri bütün səltənəti, hətta Cəlaləddinin məlikəsini- Neyyirəsini də Çingizə təslim etməkdir.

"Cəlaləddin Xarəzmşah" pyesində Neyyirə ərini hər cür təhlükələrdən qorumaq üçün çırpınan qadındır. Cəlaləddin arvadı Neyyirəni və oğlu Qütbəddini düşmən əlinə keçməsin deyə Sind çayına atır. Neyyirə fikirləşmədən ərinin iradəsinə tabe olur, bununla öz namusunu, elinin-obasının namusunu qoruyur. Namiq Kamalın vətən və millətinə duyduğu sevgi, islamiyyətə bağlılığı, bunlar üçün mübarizə aparmaq, ölmək iradəsi Neyyirə kimi qadın qəhrəmanlarında da əks olunur. Neyyirə də yazıçının müdafiə etdiyi islam birliyi ideologiyasını təmsil edir.

On beş nəfərlə çayda boğulmaqdan xilas olan Cəlal Hindistanda ordu toplayır, Təbrizə qədər gəlir. Cəlaləddin Təbrizin hakimi Mehricahan xatunla evlənir. Onların hər ikisi iki islam dövlətinin birliyinə çalışırlar.

İslam birliyini təsis etməyi ən ali məqsədi hesab edən Cəlal tatarlara qarşı bir döyüşdə qalib gəlsə də, müharibə tam olaraq bitmədən ona qarşı sui-qəsd hazırlayan əyanların yeni bir xəyanətilə qarşılaşır. Ordusu bölünən Cəlal buna baxmayaraq döyüşməyə davam edir. O, düşüncəsində yalnız islam birliyini qurmaq ideyası olan bir qəhrəmandır. Bu birliyin önündəki ən böyük əngəl isə ona görə Çingizdir. O, bu təhlükəni tamam ortadan qaldırmaq üçün Abbasi xəlifəsinə tatarlara qarşı birlikdə mübarizə aparmağı təklif edir. Xəlifə Nasir öz mənfəətini islam birliyindən üstün tutduğu üçün Cəlalın bu təklifini qəbul etmir, üstəlik ondan da tatarlarla vuruşmaqdan vaz keçməsini istəyir. Nasirlə yaşadığı gərginliyin Cəlal üçün çox ciddi əhəmiyyəti var idi. Çünki xəlifə ilə razılaşmamaq digər islam ölkələrinin də düşmənçiliyini qazanmaq demək idi. Cəlal islam birliyini xəlifəyə itaət edərək gerçəkləşdirilməsini istəyən Nasirin elçisinə çox kəskin cavab verməkdən çəkinmir: "Nasirin islama etdiyi xəyanəti nə Yeziddən, gördük, nə Həccacdan"-deyə xəlifəni islam birliyinin düşməni sayır. Həmçinin xəlifə Nasiri Çingizdən daha qatı düşmən hesab edir.

İdealını hər şeydən üstün tutan Cəlal milləti yolunda can vermək istəyən bir qəhrəmandır. Onun üçün iki amal vardır: vətən və xalq. Bu amal uğrunda vəzifəsi islam birliyini təsis etmək, bunun uğrunda şücaət göstərmək, monqol-tatarlara qarşı çıxmaq və ondan islam mülklərini qorumaqdır. Onun bütün əsər boyu bu idealının arxasınca getdiyini görürük. O, idealını belə açıqlayır: "Mənim vəzifəm Çingizi qorxutmaq deyil, islam mülklərini qurtarmaqdır! Tatarın ayağını azan səsi eşitmiş məmləkətlərdən tamam kəsməkdir"(4,21).

Cəlal niyə məğlub olur? Çünki o, mübarizədə, demək olar ki, təkdir. Əvvəlcə Cəlal şahzadə ikən atası ilə qarşı-qarşıya gəlir. Bu ata ilə oğul, ölkəsini qorumaq istəyən Cəlal ilə hökmdara yaraşmayan bir qorxaqlıqla adaya sığınan insan arasındakı konfliktdir. Cəlal padşah olduqdan sonra şahzadə qardaşları ilə qarşı-qarşıya gəlir. Daha sonra onun mübarizəsinə ciddi əngəl olan islam xəlifəsi Nasirlə birgə digər islam dövlətləriylə qarşı-qarşıya gəlir. Tatarlar isə bu konfliktlərin qaynağı olaraq göstərilir.

N.Kamal Cəlalın məğlubiyyətinin səbəbini islam birliyinin olmaması ilə

izah edir. N.S.Banarlı qeyd edir ki, "Əsər Xarəzmşahlar dövlətinin son hökmdarı Cəlaləddin Xarəzmşahın həyatını, qəhrəmanlığını ve moğollara karşı türk-islam dünyasını qorumaq üçün girişdiyi mücadile ve əzmkarlığı hikaye edir. Bir qan, zülm və atəş seli halında türk-islam məmləkətlərinə axan moğol istilasına qarşı Cəlaləddinin bir imanla çarpışıb şəhid olmağındakı fəziləti anladır" (2, 907).

Cəlalın bütün həyatı kimi, ölümü də islam birliyinə xidmət edir. O, son nəfəsində də yarasının qanı ilə Mehricahana vəsiyyətnaməsini yazdırır. O, bu vəsiyyətnamədə son arzusu olaraq tatar qövmünü müsəlman olmağa çağırır. Bunda da məqsədi bütün türk dünyasını islam bayrağı altında birləşdirməkdir.

Cəlaləddin büsbütün bir sədaqət abidəsidir. Onun vətənə, xalqa sədaqət hissi əsərin sonunda da özünü göstərir. Cəlal canı ilə çəkişərkən, Mehricahana diqtə etdiyi vəsiyyətində sağ qalanlardan tatarlarla mübarizəni davam etdirməyi, həm də onların islamı qəbul etməsini istəyir. Bu, sədaqəti yüksək dəyər olaraq mənimsəmiş qəhrəmanın öz idealına bağlılığının göstəricisidir: "Tatarlar da insandır. Bir dəfə bizimlə qaynayıb-qarışarlarsa, əlbəttə, islamın feyzü şərəfini görərlər. Könülləri dəyanətə meyl edər. Bu halda islama vacib olan hərəkət tatar millətinin əlinə düşməyənlər üçün ölüncəyə qədər vətənlərinin istiqbalını mühafizə etmək, düşənlər üçün tatar qövmünü müsəlman etməyə çalışmaqdır" (4, 299).

Cəlal eşqinə də sadiq bir qəhrəmandır. Şahzadə ikən evləndiyi və padşah ikən idealı uğrunda öz əlləriylə ölümün qucağına atdığı arvadı Neyyirənin xatirəsinə ömrü boyunca sadiq olmağa çalışır. Neyyirəyə çox bənzəyən və ona evlənmək təklif edən Mehricahanın təklifini mərhum arvadının xatirəsinə hörmət əlaməti olaraq qəbul etmir. Ancaq bir müddət sonra bununla idealına xidmət edəcəyini düşündüyü üçün bu təklifi qəbul edir.

Cəlalın məsləkdaşlarından Nurəddin təklif edir ki, islam mülkünü lütf ilə olmasa, qəhr ilə birləşdirmək gərəkdir. Cəlal isə buna qəti etiraz edir: "Allah! Allah! Dünyada kimin nə arzusu varsa, İslam qanı sayəsindəmi hasil olacaq? Tatar islam qanı istər! Xəlifə islam qanı istər! Hətta İslamın nicatı kimi bir müqəddəs məqsəd də yenə islam qanı istəyir, eləmi?" (4, 265). Burada Cəlalın Nurəddinlə dialoqu tarixi şəxsiyyət kimi Cəlaləddinin mənəvi-psixoloji dünyasının açılmasına xidmət edir. Cəlal ideal, vəzifə şüuru, məsuliyyət, fədakarlıq, sədaqət kimi yüksək dəyərləri həm təmsil edir, həm də bu dəyərləri öz əməlləri ilə ifadə edir.

N.Kamala görə, türk-islam qüvvələrini zəif salan onların arasındakı ayrılıqdır. N.Kamal bu əsərində islam güclərinin yenilməsi səbəbini əsərdən də göründüyü kimi öz aralarındakı ixtilaflarda görür. Zaman-zaman islamın zəifliyinə səbəb bu dinə sitayiş edən ölkələr arasındakı ixtilaflar olmuşdur. Bu ixtilaflar ucbatından Cəlala heç kim yardım etmir. Cəlaləddin Xarəzmşah islamı parçalayan sünni və şiə məzhəblərinə qarşı da çıxır. Cəlaləddinlə müharibə edən Çingiz xan da türk idi. Lakin monqollar islamı qəbul etməmişdilər, buddizmə sitayiş edirdilər.

Pyes müəllifi Osmanlı səltənətinin ətrafında islam birliyi qurmaq istəyini ifadə edirdi. Pyesdə panislamçı ideyanın böyük bir həssaslıqla incələndiyini görürük. N.Kamal "Cəlaləddin Xarəzmşah"da islamı vətən ilə birləşdirmək,

ucaltmaq məqsədini güdür. O, Cəlalın həyatı, qəhrəmanlıqları fonunda moğollara qarşı türk-islam birliyi uğrunda girişdiyi böyük mücadilələri təsvir edir. Bu əsəriylə bir növ türk cahan hakimiyyəti məfkurəsini ortaya qoymaqdadır.

N.Kamalın bütün əsərlərindən üstün tutduğu "Cəlaləddin Xarəzmşah" sadəcə oxunmaq üçün yazılmışdır və hər səhnəsində Cəlalın bir məziyyəti ortaya çıxır. Ə.H.Tanpınar bu əsərlə bağlı yazır: " Zatən pyesdəki bütün yaxşı və fəzilətli qəhrəmanlar üçün tək bir mükafat vardır: Cəlalın dizləri dibində ölmək" (9, 372). Doğrudan da bütün yaxşı insanların pislər qarşısında yox olduğu bu əsərdə Namiq Kamal islam birliyini qurmaq üçün çalışan və öz kökünə bağlı olan, özünü fəda edən ideal qəhrəmanını təsvir edir (3, 32).

Namiq Kamal məhz türk hökmdarlarının tarixi səhvlərini göstərmək üçün Cəlalı ədəbi qəhrəman kimi seçmişdi. Yazıçı böyük imperiyaların dünyanı bölüşdürdüyü müharibələrin, qəsbkarların insan talelərini fəlakətə sürüklədiyini, islam dünyasını parçaladığını  göstərmək və buna öz etiraz səsini ucaltmaq üçün yazdığı əsərlərlə bütün dövrlər üçün aktual olan görüşlərini görkəmli şəxsiyyətlərin dili ilə çatdırmağa çalışırdı.

Tarixi şəxsiyyət bədii tip kimi özünün məzmununa görə həmişə tarixən konkretdir. O, bədii yaradıclığın elə bir güzgüsüdür ki, burada dövr əks olunur, müəyyən nəsil özünün, öz sələflərinin portretlərini görür. N.Kamal da Cəlalı tarixi şəxsiyyət olaraq tipikləşdirmişdir. Qeyd edək ki, XX əsr özbək dramaturgiyasının ən tanınmış nümayəndələrindən olan Maqsud Şeyxzadə də Xarəzmşah dövlətinin hökmdarı Cəlaləddini tarixi şəxsiyyət və ədəbi qəhrəman seçmişdir. Onun vətənpərvərlik və qəhrəmanlıq ruhunda yazdığı "Cəlaləddin Mənquberdi" (1944) əsərinin mövzusu XIII əsrdə baş vermiş tarixi hadisələrdən götürülmüşdür. Əsərin baş qəhrəmanı Cəlaləddin Mənquberdidir. O, Məhəmməd Əlaəddin Xarəzmşahın oğludur. Faciənin əvvəlində göstərilir ki, Xarəzmşah öz sarayında eyş-işrətlə məşğul olarkən monqol hakimi Çingiz xandan namə alır. Elçinin gətirdiyi namədə ölkənin təslim olması tələb olunur. Xarəzmşah Çingiz xanın elçilərinə rədd cavabı versə də, ölkədə müdafiə işlərini qura bilmir, buna görə oğlu Cəlaləddin ilə aralarında ziddiyyət yaranır. Xarəzmşah öz oğlunu vəliəhdlikdən məhrum edir. Cəlaləddin isə taxt-tac üçün yox, ölkənin müdafiəsi üçün mübarizəyə qalxır (6, 240). Göründüyü kimi, M.Şeyxzadə də öz əsərində N.Kamal kimi demək olar ki, tarixi faktlara sadiq qalmışdır. M.Şeyxzadənin "Cəlaləddin Mənquberdi" pyesinin təhlili zamanı Xəlil Rza qeyd edir ki, Cəlaləddinin Çingiz xana qarşı mübarizəsində tarixən ədalətli olması, böyük düşmənə qarşı böyük mübariz kimi uzun müddət duruş gətirməsi, güclü sərkərdəlik məharəti və xarakterindəki bir sıra üstünlüklər (qızğın təşkilatçılıq bacarığı, mübarizədə dönməzlik, ardıcıllıq, igidlik və s.) Cəlaləddini Özbəkistan tarixində görkəmli bir şəxsiyyət kimi tanımağa və qiymətləndirməyə imkan verir. M.Şeyxzadəni maraqlandıran məsələlərdən biri qəhrəmanlığın çeşidləridir: cismani qəhrəmanlıq və zəka qəhrəmanlığı! M.Şeyxzadənin fikrincə, zəka qəhrəmanlığı cismani qəhrəmanlığın yoluna işıq salan günəşdir. Cəlaləddinin zəka qəhrəmanlığı xalqa güvənməsindən doğur

(8,126). Bu pyesdə münaqişə Xarəzmşah ilə oğlu Cəlaləddin arasındakı xarakter fərqlərinin dərinliyini aydın göstərir. Xarəzmşah şöhrətpərəst, lovğa, xudbin olduğu halda, Cəlaləddin vətən və xalq mənafeyini əsas götürən, fədakar və uzaqgörəndir. Xarəzmşahın başlıca qayğısı taxt-tacını qorumaq fikri olduğu halda, Cəlaləddinin məqsədi böyükdür: taxt-tacın özünü milli istiqlal vasitəsinə çevirmək, düşməni darmadağın etmək.

Namiq Kamalın Midillidə yazılan "Cəlaləddin Xarəzmşah" əsərinin digər mühüm bir tərəfi də əsərin əvvəlində teatra, ümumiyyətlə, ədəbiyyata dair müqəddiməsindədir. Dramaturqun bu əsər üzərində nə qədər məsuliyyətlə işlədiyini pyesə yazdığı müqəddimədən bilmək olur. "Cəlaləddin Xarəzmşah" pyesinə yazdığı "Müqəddimeyi-Cəlal" girişi onun teatr haqqında fikirlərini, elmi-mədəni düşüncələrini dərindən və yaradıcı surətdə əks etdirmək baxımından son dərəcə əhəmiyyətlidir.

Namiq Kamal müqəddimədə "Cəlaləddin Xarəzmşah" pyesi barədə də düşüncələrini qələmə alır. Cəlalı bir qəhrəman olaraq təsvir etməsi səbəbini açıqlayarkən əsas xüsusiyyət kimi onun əxlaq sahibi olduğunu vurğulayır. N.Kamal müqəddimədə qəhrəmanın sahib olduğu dəyərlərin islam əxlaqına örnək olduğunu göstərir. Dramaturq qeyd edir ki, Cəlaləddin bütün cahanda böyük bir qəlbə malik olduğunu isbat edərək, atasından bir quru şahzadəlik titulundan başqa heç bir şey almadığı halda Xarəzmdə, Hindistanda, İraqda dövlətin təşkilinə müvəffəq olmaq, cüzi sayda döyüşçülərlə üç milyon əsgərə malik olan tatar dövlətinə iyirmidən çox qələbə çalmaq, bir tərəfdən tatar, bir tərəfdən ümərayi-islam, bir tərəfdən gürcülərlə uğraşdığı halda böyük zəfərlər qazanmaq, məmləkət qurmaq misli görünməmiş fövqəladə hadisələrdəndir (5, 62).

Namiq Kamalın "Cəlal müqəddiməsi"ndəki mühüm fikirlərdən biri mənzum teatrı rədd etməsidir. "Cəlal" pyesinə yazdığı müqəddimədə əsərini nə üçün mənzum yazmadığını izah edərkən, əruzun türk dilinin təbiətinə və şivəsinə uymadığını, təbii bir danışıq tərzinin əruz ilə nəzmi imkansız olduğunu söyləməklə bərabər, heca vəzninin əruza görə ahəngsiz qaldığını da irəli sürürdü. Teatrın dili və əxlaqı gözəlləşdirən bir məktəb olduğunu bildirən ədib "Cəlal"ı nəsrlə yazdığını da bununla izah edirdi.

Namiq Kamalın dramaturgiyası türk dramaturgiyasının tarixində xüsusi bir mərhələ təşkil edir. Onun pyeslərinin bu gün də öz ideya-bədii əhəmiyyətini saxlayan cəhətləri çoxdur. "Cəlaləddin Xarəzmşah" pyesinin isə N.Kamalın əsərləri arasında xüsusi bir yeri vardır. "Cəlaləddin Xarəzmşah" pyesinin əsas qayəsini türk dünyası arasındakı parçalanmanın səbəbləri və parçalanmanın acı nəticələri təşkil edir.

**ƏDƏBİYYAT**


1. Aktaş Ş. Namık Kemal ve insan. Doğumunun yüz ellinci yılında Namık Kemal. Ankara: Atatürk kültür merkezi, 1993, s.1-12
2. Banarlı N.S. Resimli türk edebiyatı tarihi: 2 cilddə; IIc. İstanbul: Milli egitim basımevi, 1987, 1366 s.
3. Enginün İ. Yeni türk edebiyatı araştırmaları. İstanbul: Dergah yayınları, 2001, 618 s.

4. Kemal N. Celaleddin Harzemşah. Ankara: Akçağ, 2005, 304 s.
5. Kemal N. Mukaddime-i Celal. Celaleddin Harzemşah. Ankara: Akçağ, 2005, s. 31-76
6. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Conatant empary, 2011, 568s.
7. Öcal O. Namık Kemalın "Celaleddin Harzemşah" pyesinə ön söz. Ankara: Akçağ, 2005, s.5-28
8. Rza X. Məqsud Şeyxzadənin bədii yaradıcılığı. Bakı: Elm, 1980, 232 s.
9. Tanpınar Ə.H. XIX asır türk edebiyatı tarihi. İstanbul: İbrahim Horoz basımevi, 1956, 614 s.

## ИСТОРИЧЕСКАЯ ЛИЧНОСТЬ И ИДЕЯ ИСЛАМСКОГО ЕДИНСТВА В ПЬЕСЕ НАМИКА КЕМАЛЯ «ДЖЕЛАЛАДДИН ШАХ ХОРЕЗМА»

**К.Н.НАДЖАФОВА**

### РЕЗЮМЕ

Существуют такие важные исторические личности, изучение творчество которых актуально во все времена. Потому что наследие этих художников помогает нам понять наше прошлое и здраво смотреть в будущее. Намик Кемаль - один из таких личностей. Идеи свободы и равенства, исламского единства, которые пропагандировал в своих произведениях Намик Кемаль, являются одними из наиболее актуальных вопросов современности. Н.Кемаль начал свою творческую карьеру в самый кризисный момент для истории Турции, став свидетелем яркой национальной борьбы. Он поэт, прозаик, драматург и публицист, который выразил в собственных произведениях свои чувства и мысли. Пьесы Н.Кемаля представляют собой важный этап в турецкой драматургии. Пьеса «Джелаладдин Шах Хорезма», основной идеей которой является глубокая любовь к родине, занимает особое место среди пьес Намика Кемаля. Именно в этой пьесе Н.Кемаль выражает свои мысли и ожидания относительно единения исламского мира. В статье исследуется идейно-тематическое содержание пьесы Намика Кемаля «Джелаладдин Шах Хорезма».

**Ключевые слова**: Джелаладдин, пьеса, историческая личность, ислам, свобода, Намик Кемаль

## HİSTORİCAL PERSON AND İDEA OF İSLAMİC UNİTY İN THE PLAY "JELALADDİN SHAH OF KHOREZM" BY NAMİK KEMAL

**K.N.NAJAFOVA**

### SUMMARY

There are some important historical figures whose creativity is relevant at all times as the legacy of these artists helps us to understand our past and look at the future. Namik Kemal is one of such personalities. Ideas of freedom and equality, Islamic unity, which Namik Kemal advocated in his works, are one of the most pressing issues of our time. N.Kemal began his creative career at the most critical moment for the history of Turkey. He became a witness of a vivid national struggle. He is a poet, prose writer, playwright and publicist, who expressed his feelings and thoughts in his own works. The plays of N.Kemal are an important stage in the Turkish drama. The play "Jelaladdin Shah of Khorezm", the main idea of which is a deep love for the homeland, occupies a special place among the plays of Namik Kemal. N.Kemal expresses his thoughts and expectations about the unity of the Islamic world in this play. The article explores the ideological and thematic content of the play "Jelaladdin Shah of Khorezm" by Namik Kemal.

**Keywords**: Jelaladdin, play, historical personality, Islam, freedom, Namik Kemal